***Bakı şəhəri Səbail Rayon gənclərinin keçirdiyi «Müasir Azərbaycan - gənclərin gözü ilə» mövzusunda dəyirmi masa iştirakçılarının***

# ***BƏYANATI***

Biz – Səbail rayonunun gəncləri, ***«Müasir Azərbaycan - gənclərin gözü ilə»*** mövzusunda dəyirmi masanın iştirakçıları olaraq, böyük fərəh və qürur hissi ilə qeyd edirik ki, Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu və bu böyük siyasi kursun ən layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çox böyük məharətlə və uğurla davam etdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan regionda lider dövlətə çevrilmişdir. Ölkəmizin dünyanı heyran qoyan iqtisadi qüdrəti və beynəlxalq nüfuzu durmadan artır, xalqımızın güzəranı gündən-günə yaxşılaşır.

Qətiyyətlə qeyd edirik ki, bu gün həyatını xalqımızın hərtərəfli tərəqqisinə həsr edən möhtərəm Prezidentimiz İlham Əliyev xalqımızın lideri olaraq dövlətçilik maraqlarımızın qorunmasında, əhalinin rifahının yaxşılaşdırılmasında qəti və prinsipial mövqe nümayiş etdirir. Dövlət başçısının yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən ölkələrin sırasında öz layiqli yerini tutaraq, yüksəliş, tərəqqi nümayiş etdirir.

Son 13 ildə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkə iqtisadiyyatının inkişaf tempi dəfələrlə artmışdır. Respublikamızda artıq çoxşaxəli iqtisadiyyat yaranmışdır. Qeyri-neft sektorunda və aqrar sahədə artım ilbəil çoxalır. Müdafiə sahəsində həyata keçirilən tədbirlər Azərbaycan ordusunu Qafqaz regionunun ən güclü hərbi qüvvəsinə çevirmişdir. Bunu bu ilin aprel ayında Azərbaycan Ordusunun cəbhə bölgəsində Erməni təxribatına cavab olaraq əks-hücum nəticəsində qazanılan qələbə subut edir.

Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində ölkə regionlarında sosial-iqtisadi inkişaf, abadlıq-quruculuq işləri geniş vüsət almış, müasir infrastruktur layihələrinin icrası şəhər və kəndlərimizin simasını tamamilə yeniləşdirmişdir. Son illərdə Prezidentin özəl sektora göstərdiyi ardıcıl dəstək nəticəsində artıq milli sahibkarlar təbəqəsi yaranmışdır və onlar iqtisadi-sosial inkişafa töhfələrini getdikcə artırırlar. Prezident İlham Əliyev mütəmadi olaraq regionlarda olaraq burada aparılan işlərlə yaxından tanış olur, sosial-iqtisadi proqramların həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər həyata keçirir. Onun Azərbaycanin inkişaf və tərəqqisi istiqamətində gördüyü işlər və yorulmaz fəaliyyəti gənclərimiz üçün nümunədir.

Bəyan edirik ki, Azərbaycanda misli görünməmiş inkişaf və tərəqqi siyasətini həyata keçirən şəxsiyyət kimi cənab Prezident artıq ölkə tarixində "Qurucu İlham" kimi təsdiq olunub.

Ardıcıl olaraq həyata keçirilən, sözün əsl mənasında müstəqil xarici siyasət nəticəsində ölkəmizin regionda və beynəlxalq aləmdə nüfuzunun və təsirinin artması məhz möhtərəm Prezidentimiz İlham Əliyevin fəaliyyəti ilə bağlıdır.

Ölkədə son illərdə həyata keçirilən geniş miqyaslı abadlıq-quruculuq işləri, yeni-yeni təhsil, səhiyyə, mədəniyyət, idman müəssisələrinin tikintisi və köhnələrinin əsaslı təmiri, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlar öz bəhrəsini göstərməkdədir.

Dünyada gedən siyasi və iqtisadi böhranlara, bir çox ölkələri bürüyən müharibə və terror hallarına baxmayaraq Azərbaycan öz inkişaf templərini qoruyub saxlamağa nail olmuş, əmin-amanlıq, sabitlik qorunub saxlanmışdır. Bütün bu işlər məhz cənab İlham Əliyevin yorulmaz əməyi və apardığı uzaqgörən siyasətinin nəticəsidir.

Bildiririk ki, bu günkü müzakirə və qənaətlərin məntiqi davamı kimi xalqımızın ön sıralarında gedərək, bu siyasətin Azərbaycanımıza yeni uğurlar qazandırması naminə sevimli Prezidentimiz İlham Əliyevin ətrafında daha sıx birləşəcək, həmişə, hər işdə ona dəstək olacağıq.

Bir daha bəyan edirik ki, Ulu öndər Heydər Əliyevin tarixi uzaqgörənliklə əsasını qoyduğu və Prezident İlham Əliyevin böyük məharətlə davam etdirdiyi siyasi xətt hazırki çox mürəkkəb dövrdə yeganə və alternativsiz siyasətdir və bu siyasət Azərbaycanımızın gələcək inkişaf və tərəqqisinə təminat verir.

***Bakı şəhəri Səbail rayon gənclərinin təşkilatçılığı ilə keçirilən «Müasir Azərbaycan gənclərin gözü ilə» mövzusunda dəyirmi masa iştirakçıları***

_______________________ _______________________________

_______________________________

_______________________ _______________________________

_______________________________

_______________________ _______________________________

_______________________________